92 yaz 2(Az)
Ə-36

# XX əsr AZƏRBAYCAN yazıçıları

## ENSİKLOPEDİK MƏLUMAT KİTABI



fakültəsində (1964-1969), Azərbaycan Jurnalistlər İttifaqı nəzdində olan Jurnalist Sənətkarlığı İnstitutunda təhsilini davam etdirmişdir (1975-1977). Azərbaycan EA Nizami adına Ədəbiyyat İnstitutunun dissertantı olmuş, «Azərbaycan sovet nəsri ədəbi tənqiddə (1965-1985)» mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir (1989). Əmək fəaliyyətinə Sabirabad rayonunun Cəngən kənd səkkizillik məktəbində müəllimliklə başlamışdır (1969-1971). Bakı şəhəri Bakıxanov qəsəbəsindəki «Leninneft» Neft Qazçıxarma İdarəsinin mədəniyyət sarayında ədəbiyyat dərnəyinin rəhbəri olmuşdur (1973-1975). Azərbaycan Pedaqoji Dövlət Xarici Dillər İnstitutunda laborant işləmiş, APİ-nin ictimai peşələr fakültəsində laborant, baş laborant olmuş, jurnalistika kursunu tədris etmişdir (1975-1979). Azərbaycan radiosunda ştatdankənar müxbir (1971-1975), APİ-nin çoxtirajlı «Gənc müəllim» qəzeti redaksiyasında əməkdaş (1975-1979), Oktyabr rayonunda mədəni-kütləvi işlər təşkilatçısı və metodist (1980-1991). Nəsimi rayonunda sosioloq olmuşdur

Ədəbi aləmə 1975-ci ildə «Ulduz» jurnalının 4-cü sayında çıxan «Bahara lap az qalır» əsəri ilə gəlmişdir. Bundan sonra «Azərbaycan», «Ulduz», «Müxbir» jurnalında, «Ədəbiyyat və incəsənət» qəzetində hekayə və povestlərlə çıxış etmişdir. «Cəlladımız zalım idi» ağı-salnaməsi «Zəka» jurnalının 1992-1995-ci il saylarında dərc olunmuşdur.

2000-ci il martın 9-da dünyasını dəyişmişdir.

Əsərləri:

1. Bahara lap az qalır, B., Yazıçı, 1986, 243 səh., 7.000 nüs.
2. Gecə lampası, B., Yazıçı, 1989, 176 səh., 10.000 nüs.
3. Cavab (hekayələr), B., Günəş, 1999, 136 səh., 300 nüs.
4. Ömrün ziyalı cavabdehliyi (monoqrafik lövhələr), B., Günəş, 2001, 172 səh., 150 nüs.



**TOFİQ MAHMUD**
**(1931-1997)**

***Mehdiyev Tofiq Mahmud oğlu – şair, nasir, publisist, 1958-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, Azərbaycan komsomolu mükafatı laureatı (1984).***

1931-ci il noyabrın 6-da Azərbaycanda Naxçıvan MR Şahbuz rayonunda anadan olmuşdur. Orta təhsili Bakıda 31 saylı məktəbdə almış, sonra Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini bitirmişdir (1949-1954). Əmək fəaliyyətinə Azərbaycan Mədəniyyət Nazirliyinin mədəni-maarif müəssisələri idarəsində metodiki kabinetin metodisti kimi başlamış (1954), sonra «Azərbaycan müəllimi» qəzeti redaksiyasında xüsusi müxbir (1958-1961), «Göyərçin» jurnalı redaksiyasında ədəbi işçi olmuşdur (1961). İlk şeri – «Kəsməsəm də, görməsəm də» 1953-cü ildə «İnqilab və mədəniyyət» jurnalında dərc olunmuşdur. 1976-cı ildən «Göyərçin» jurnalının redaktoru vəzifəsində işləmişdir. Bədii tərcümə ilə də məşğul olmuşdur. Onun tərcüməsində Xuta Berulavanın «Quş südü», İsabəy İshaqovun «Hər şeyi öyrənmək istəyən» kitablarını seve-sevə oxuyurlar. Əsərləri xarici ölkə xalqlarının dilinə tərcümə olunmuşdur. Azərbaycan Respublikası Uşaq Fondunun Bakı şöbəsinin sədri, həm də rəyasət heyətinin üzvü olmuşdur (1989-cu ildən). Azərbaycan Yazıçılar Birliyi uşaq və gənclər ədəbiyyatı şurasının sədri, keçmiş SSRİ Yazıçılar İttifaqı uşaq və gənclər ədəbiyyatı şurasının üzvü seçilmişdir. Azərbaycan Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı ilə təltif edilmişdir.

1997-ci il aprelin 4-də Bakıda vəfat etmişdir.

Əsərləri:

1. Yola çıxıram, B., Uşaqgəncnəşr, 1959, 36 səh., 3.000 nüs.
2. Mənim kürəkənim, B., Xalq yaradıcılıq evi, 1959, 12 səh., 2.000 nüs.
3. Dibçək, B., Uşaqgəncnəşr, 1962, 16 səh., 20.000 nüs.
4. Buzovna qayaları, B., Azərnəşr, 1963, 52 səh., 5.000 nüs.
5. Utancaq oğlan, B., Uşaqgəncnəşr, 1964, 16 səh., 15.000 nüs.
6. Açıqdır pəncərəm, B., Azərnəşr, 1966, 106 səh., 9.000 nüs.
7. Alpinistlər, B., Gənclik, 1967, 62 səh., 8.500 nüs.
8. Meşədə səs, B., Gənclik, 1969, 70 səh., 8.000 nüs.
9. Ana qucağı, B., Gənclik, 1971, 72 səh., 9.000 nüs.
10. Qızımın sualları, B., Gənclik, 19 səh., 10.000 nüs.
11. Dalğalar, B., Gənclik, 1976, 135 səh., 10.000 nüs.
12. Ulduzlar, düşüncələr, B., Azərnəşr, 1977, 111 səh., 4.600 nüs.
13. Pəncərəyə toxunan budaq, B., Gənclik, 1978, 134 səh., 15.000 nüs.
14. Kəpənək gözəlliyi, B., Gənclik, 1980, 178 səh., 6.000 nüs.
15. Məhəbbətim sirr deyil, B., Yazıçı, 1981, 215 səh., 6.000 nüs.
16. Yerə dağılan muncuqlar, B., Gənclik, 1983, 271 səh., 30.000 nüs.
17. Şən şerlər, B., İşıq, 1983, 42.000 nüs.
18. Bu işıqla qalacağam (şerlər, poemalar), B., Yazıçı, 1985, 256 səh., 7.000 nüs.
19. Yağış yağır dənizə, B., Gənclik, 1985, 175 səh., 7.000 nüs.
20. Gecə qapı döyülür, B., Gənclik, 1988, 366 səh., 20.000 nüs.
21. Uzaqda ucalan dağlar, B., Yazıçı, 1991, 310 səh., 12.000 nüs.